# Turizmin inkişafı prioritet istiqamətlərdəndir

**Turizmin inkişafı iqtisadiyyatımızın güclənməsinin, gəlirlərinin xeyli artmasının və ən əsası, regionların sosial-iqtisadi inkişafının əsasını təşkil edir. Hazırda bu sahənin inkişafına çox ciddi diqqət göstərilməkdədir. Ümummilli lider Heydər Əliyevin Fərmanı ilə təsdiqlənmiş "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı" ölkəmizdə turizm sektorunun inkişafında əsas rol oynamışdır. 2002-ci ildən başlayaraq hər il Bakıda Beynəlxalq Turizm Sərgisinin keçirilməsi də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.**



Ulu öndər Heydər Əliyev siyasətini hər bir sahədə uğurla davam etdirən Prezident İlham Əliyevin 6 aprel 2010-cu il tarixli Sərəncamına əsasən təsdiqlənmiş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" bu sahənin inkişafı üçün daha ciddi əsas yaradıb. Həmçinin 2011-ci il ölkəmizdə "Turizm İli" elan olunması və bu sahədə atılan digər addımlar turizmin inkişafının yeni mərhələyə qədəm qoymasına öz töhfəsini vermişdir.

Ölkəmizdə turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədər genişdir: turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və son zamanlar bu istiqamətdə müsbət dinamika artmaqdadır. Hər il ölkəmizdə 25-50 yeni mehmanxana, hotel və digər turist yerləşdirmə obyektlərinin təməli qoyulur. Bundan əlavə, iş adamlarında da turizm sahəsinə geniş maraq yaranıb. 10 il əvvəl ölkəmizdə cəmi 32 turizim şirkəti olduğu halda, indi bu göstərici 123-ə çatıb.

Azərbaycanın son illər beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi də turist axınının sürətlənməsində stimulverici amil rolunu oynayır. Qonaqlar tədbirlərdə iştirak etməklə yanaşı, ölkənin müxtəlif məkanlarındakı müasir turizm obyektlərində istirahət edir, tarixi abidələri ilə tanış olur, əsrarəngiz təbiətini seyr edirlər, bir sözlə, milli musiqi və mətbəxi ilə tanış olurlar.

Turizmin müxtəlif növləri vardır ki, onlardan biri də "İdman turizmi" adlanır. Buna əsas olaraq, son illər idmanın müxtəlif növləri üzrə ölkəmizdə beynəlxalq yarışlar keçirilir və idman yarışları turizmin bu növünün inkişafına xidmət edir. Miqyasına görə isə "Bakı 2015" ilk Avropa Oyunları bu yarışları üstələdi. Birinci Avropa Oyunları Azərbaycanın turizm sektorunun inkişaf etdirilməsi üçün geniş imkanlar yaratdı. Oyunların keçirilməsi ərəfəsində və yarışların davam etdiyi günlərdə dünyanın müxtəlif yerlərindən ölkəmizə turist axını oldu. İlk Avropa Oyunları Azərbaycanın mədəniyyətinə, idmanına, iqtisadiyyatına, turizminə böyük töhfələr verdi. Avropa Oyunlarının möhtəşəmliyi, təşkilatçılıq və qonaqpərvərliyimiz turistlərin yaddaşına həkk olundu.

Dünya turistlərinin diqqətini Azərbaycanın gözəl, füsunkar təbiətinə yönəltmək üçün bu gün müxtəlif istiqamətlərdə fəal işlər görülür. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, disklər hazırlanır və yayılır, dünyanın müxtəlif televizya kanallarında reklamlar nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internetin imkanlarından geniş istifadə olunur. Ümumilikdə son 2 ildə ölkəyə gələn turistlərin sayı 41 faiz yüksəlib. Bu uğur Dünya Turizm Təşkilatı tərəfindən də qeyd olunub. Dünyada turizm sahəsində böhranlar və çətinliklər olmasına baxmayaraq, Azərbaycan turist sayının artımına nail olub. Turizm sahəsində nəzərə çarpan inkişaf ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin nəticəsi olmaqla yanaşı, həm də dövlət tərəfindən turizm sahəsinə göstərilən diqqətin təzahürüdür. Uğurlarımızın davamlılığı bu əminliyə əsas yaradır ki, növbəti illərdə turizm sahəsində də göstəricilər daha yüksək rəqəmlərlə ifadə olunacaq.

✍ Mənsumə Babayeva,
*"İki sahil"*